# Vərni xovsuz xalılarında əjdaha motivinin həndəsi transformasiyası

**Dürdanə Qədirova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Azərbaycan Milli Xalça Muzeyi. Azərbaycan.
E-mail: dgadirova22@gmail.com

**Annotasiya.** Məqalə Səfəvi dövrünün "Əjdahalı" xalılarında rast gəlinən əjdaha motivinin Qarabağın vərni xalılarında bədii reinterpretassiyasına həsr olunub. Araşdırmada əjdaha motivinin simvolizmi, onun mənşəyi barədə məlumat verilir. Bu motivin tarixi, semantoloji kökləri Ön Asiya, Anadolu və Qafqaz mifologiyasında izlənilir.
Məqalənin əsas hissəsində konkret muzey xalıları əsasında əjdaha motivinin vərni xovsuz xalılarına "miqrasiyası" və orada – həndəsi transformasiyası təhlil edilir. XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid Qarabağın "Əjdahalı" vərni xalılarının dizayn xüsusiyyətləri, koloriti, texnoloji özəllikləri araşdırılır. Qarabağın vərni xalılarında əjdaha motivinin ikonoqrafik təhlili bu motivin Səfəvilər dövrünün xovlu "Əjdahalı" xalılarının motivləri ilə "genetik" və bədii ümumilikləri təsdiqlənir.
**Açar sözlər:** Səfəvilər, Qarabağ xalçaları, əjdaha motivi, vərni, xovsuz, həndəsi transformasiya

**Məqalə tarixçəsi:** göndərilib – 18.01.2022; qəbul edilib – 25.01.2022

# Geometric transformation of dragon motif in flat-woven carpets "Verni"

**Durdana Gadirova**
Doctor of Philosophy in Art studies
Azerbaijan National Carpet Museum. Azerbaijan.
E-mail: dgadirova22@gmail.com

**Abstract.** The article is devoted to the artistic transformation of the dragon motifs of the Safavid carpets in the flat-woven Karabakh carpets "Verni". The introduction provides an overview of the symbolism of dragon motifs. The roots of this motif can be traced in the mythology of Western Asia, Anatolia and the Caucasus.
In the main part of the article, the dragon motif and its later transformation in the flat-woven "Verni" carpets are analyzed. The issues of technology, design, color structure of the dracon Karabakh "Verni" of the late 19th-early and early 20th centuries are considered.
The iconographic analysis of the dragon motif on the flat-woven Karabakh carpets "Verni" revealed the direct relationship of this motif with the motifs of the famous "Dragon" carpets of the Safavid period.
**Keywords:** Safavids, Karabakh carpet, dragon motif, verni, flat-woven, geometric transformation

**Article history:** received − 18.01.2022; accepted − 25.01.2022

## Giriş / *Introduction*

Vərni xalıları xovsuz xalçalar arasında özünəməxsus bədii – texniki xüsusiyyətləri ilə seçilirlər. Vərni xalıları müxtəlif keçirtmə və dolama texnoloji üsulları ilə toxunulur. Vərni xalılarının konstruktiv xüsusiyyəti ondan ibarətdir ki, bu xalılar 1-3 hissəli toxunularaq sonradan birləşdirilirlər. Dünya kolleksiyalarında olan vərni xalılarının əksəriyyəti XIX əsrin sonu – XX əsrin əvvəlinə aiddir.

Bu xalılardan xüsusilə alaçıqların, evlərin və sarayların divar və döşəməsini bəzəmək üçün istifadə olunmuşdur..

## Əsas hissə / *Main Part*

Vərni xalılarının ən maraqlı qrupunu Qarabağın "Əjdahalı" vərniləri təşkil edir. "Əjdahalı" vərni xalıların yerliyi və əsas aparıcı rəngi innabı, sumağı rənglərdə olur. Həmin xalılar adətən yun ipliklərdən toxunulur.

Vərni xalılarının aparıcı motivi olan əjdaha təsvirinin zəngin tarixi kökləri və bədii ənənələri mövcuddur. Toxuculuqda bu motivin ən erkən nümunələrinə Səfəvilər dövrünün "Əjdahalı" xalılarında rast gəlinir. Əjdaha təsvirləri isə erkən Səfəvilər dövrünə aid təsvirli xalılardakı fiqurativ xarakterli süjetlərdə mövcuddur. XVI əsrin sonu – XVII əsrin əvvəlindən Səfəvi xalılarında təkrarlanan əjdaha motivi stilizasiya olunaraq ornamental xalıların aparıcı motivinə çevrilir. "Xətayi" dizaynlı xalılarda əjdaha motivi şəbəkəvari dekorativ strukturun xanalarında yerləşdirilir. Heraldik, bəzən üz-üzə, bəzən də əks istiqamətlərə baxan əjdahalar adətən, "Şah Abbas" gülü motivinin ətrafında yer alırlar.

Əjdaha motivinin Səfəvi xalılarında simvolizmi bir tərəfdən qədim talismanik (magik) inamlara arxalanır, digər tərəfdən isə bu motiv saray mədəniyyətinin və saray simvolizminin mühüm rəmzlərindən biri kimi Səfəvi hakimiyyətinin qüdrətini, əbədiliyini ifadə edir.

Səfəvilər hakimiyyətinin süqutundan sonra əjdaha motivinin yenidən dirçəlməsi isə Qacarlar hakimiyyətinin son mərhələsinə təsadüf edir. Lakin Səfəvi xalılarından fərqli olaraq bu dəfə əjdaha motivi iri ölçülü saray üçün hazırlanan xalılarda deyil, xalqın məişətində istifadə olunan xovsuz toxunuşlu vərni xalılarında öz həyatını davam etdirir. Xalçaçılıq sənətinin xalq qolunu, xalq yaradıcılığını əks etdirən vərni xalılarındakı əjdaha motivi kəskin həndəsiləşərək və stilizasiya olunaraq iri ölçülü, sadə, "**S**"-vari motivlərə çevrilir. Üfüqi sıralar ilə hərəkət edən iri "**S**"-vari motivlərin üst hissəsində olan nazik, incə, dalğalı buynuzları və aşağı hissəsində şərti, dekorativ təsvirli ayaqları bu motivlərin əjdaha təsviri olmasını ifadə edir.

Beləliklə, tarixi və bədii-simvolik köklərini Səfəvilər dövrünün Əjdahalı xalılarından götürən Qarabağın "Əjdahalı" vərniləri qədim əjdaha simvolunun həndəsiləşərək, yeni transformasiya olunmuş motivi kimi xalq xalçalarında öz əksini tapmışlar. Əjdaha motivinin süjetli, təsviri xarakterini dəyişərək sadə, həndəsiləşmiş motivə çevrilməsi ümumilikdə vərni xalılarının sadə xalqın məişətində tətbiqi ilə əlaqəli ola bilərdi. Digər tərəfdən Səfəvilər dövründə süjetli "Əjdahalı" xalıların toxunması üçün peşəkar rəssamın iştirakı mütləq idi. Əjdahalı vərni xalılarında isə sadələşmiş və həndəsiləşmiş əjdaha təsvirinin xalıda toxunması rəssamın iştirakı olmadan, toxucu tərəfindən həyata keçirilə bilərdi. Bununla da xalçaçılıq sənətində əjdaha motivinin yeni dekorativ mərhələsi başlayır.

Sənətşünas K.Əliyeva əjdaha motivi və vərni xalıları haqqında fikirlərini belə ifadə edir: - "...Əsrlər boyu Qarabağın Bərdə, Ağcabədi, Ləmbəran, Ağdam, Cəbrayıl, Füzuli və Kəlbəcər kimi rayonlarında toxunulmuşdur. Bu xovsuz xalçaya məşhurluq qazandıran onun üzərindəki "**S**"-vari və ya "**5**" rəqəmini xatırladan elementdir... Əjdaha obrazını əks etdirən vərni ailəyə xoşbəxtlik gətirir, onu şər qüvvələrdən qoruyurmuş. Vərninin hər iki hissəsində iki, dörd və yaxud da altı sıra stilizə edilmiş əjdaha rəsmləri toxuyan toxucular, onların qeyri-adi ilahi gücə malik olduğuna inanmış, bu təsvirləri çox zaman "aslan" da adlandırmışlar [1, s.74-84].

Əjdaha motivini Azərbaycan incəsənətində və toxuculuğunda dəfələrlə izləyən professor

T.İbrahimov araşdırmalarında XIX əsr – XX əsrin əvvəllərində toxunan vərni xalılarındakı əjdaha təsvirlərinin Səfəvilər dövrü xalçalarından köçməsini və tanınmaz həddə qədər stilizasiya olunmasını qeyd edir [3; 4; 5].

Volkmar Enderlein "Əjdahalı" vərnini Sileh Bahnen parçaları adlandıraraq Qafqazın Quba bölgəsinə aid edir. Müəllif belə dizayn və toxunuşlu çoxsaylı xalıların müxtəlif kolleksiyalarda saxlanılması haqqında da məlumat verir [10].

**Əjdahalı vərni xalılarının bədii-texniki xüsusiyyətləri.** Vərni xalılarının digər xovsuz xalılardan – sumaxdan, palazdan, kilimdən ən başlıca fərqli xüsusiyyəti bir-birinə tikilərək birləşmiş iki hissədən ibarət olmasıdır. Bu xalıların birləşdirilmiş hər bir hissəsi adətən 70-130 sm enində olur. Bu hissələrin uzunluğu isə adətən 150-500 sm ölçülər arasında olur. Hissələri əhatələyən haşiyə zolaqları isə vərnini təşkil edən hər bir hissənin aşağı, yuxarı, ya sağ, ya da sol kənarında toxunulur. İki hissədən – sağda yerləşənin sol kənarında, digər hissənin isə sağ kənarında haşiyə zolağı tərtib olunmur (toxunulmur) və bu da iki hissənin tikilərək birləşdirilməsi nəticəsində bütöv, vahid bir sahənin, dizaynın yaranmasını təmin edir.

Vərni xalılarının sağ və sol kənarları da şirazə (kənarə) ilə tamamlanır. Lakin vərnini yaradan hissələrdə olan sağ və sol şirazələr haşiyə zolaqlarına əsasən bir qədər fərqli olurlar. Bu fərq isə onların birləşdirici tikiş hissəsində olmasından və ya onların bütöv vərninin kənar hissəsinə düşməsindən asılı olaraq dəyişir.

Vərni xalılarının üz tərəfi ilə arxa tərəfi arasında bəzi texniki fərqlər olsa da, dizayn və naxış tərtibatında bir o qədər fərqlər nəzərə çarpmır. Bu xalıların qalınlığı isə təxminən 5-7 mm arasında dəyişir.

Ümumilikdə isə bu xalıların eni 130x300 sm, uzunluğu isə150x500 sm ölçülər arasında dəyişir. Bu xalılarda ümumi olaraq 20-30 rəng çalarından istifadə olunur. Qarabağ vərnilərinin ərişi, arğacı yundan, naxış iplikləri isə yun və bəzi hallarda pambıqdan olur. Tədqiq etdiyimiz vərnilərin sıxlığına əsasən əriş sıxlığı 25x45, arğac sıxlığı isə 40x70 arasında dəyişir.

**Dizayn.** Qarabağın "Əjdahalı" vərni xalılarının adından bəlli olduğu kimi onların əsas motivini əjdaha təşkil edir. Səfəvilər dövrünün süjetli "Əjdahalı" xalılarından fəqrlı olaraq Vərni dizaynında əjdaha motivi raport prinsipi ilə təkrarlanır. Əjdahaların əmələ gətirdiyi şəbəkədə dekorativliyi artırmaq məqsədilə şaquli, üfüqi və ya dioqonal istiqamətlərdə əjdaha motivlərinin rəngləri kontrast təşkil edir. Şaquli və üfüqi istiqamətdə açıq-rəngli əjdaha tünd-rəngli əjdaha ilə əvəz olunur. Bu üsul xalçanın dekorativliyini artırmaqla bərabər, ümumi dizaynı yeknəsəklikdən xilas edərək, aşkar müşahidə olunan dinamika ilə zənginləşdirir. Əjdaha motivlərinin vərni dizaynında kontrastlıq prinsipi ilə yerləşdirilməsi ilk dəfə olaraq Səfəvilər dövrünün "Əjdahalı" xalılarında rast gəlinib. Belə ki, artıq həmin xalılarda "Xətayi" qollarının əmələ gətirdiyi şəbəkənin xanalarında yerləşdirilmiş əjdahaların açıq və tünd rənglərdə ardıcıllaşmasını müşahidə edirik. Səfəvi dövrünün "Əjdahalı", "Xətayi" xalılarında əjdaha motivlərinin ağ və tünd rənglərdə olması prinsipi həmin xalıların şəbəkəsini əmələ gətirən "Xətayi" qollarının rəng dəyişməsində də təkrar olunur. Belə ki, həmin xalılardakı şəbəkə tünd və açıq rəngli "Xətayi" qollarının birləşməsindən əmələ gətirilmişdir. Bu dizayn prinsipinin daha sadələşmiş və həndəsiləşmiş formasını vərni xalılarının dizayn motivlərinin rənglərində müşahidə edirik.

Vərni xalılarında əjdahanı simvolizə edən iri ölçülü "**S**"-vari motivlər simvolik tərzdə, sıralarla hərəkət edən əjdaha obrazlarını əks etdirir. Bu həndəsiləşmiş **"S"** şəkilli motivlərin əjdaha olması isə iki kiçik təsvirlə ifadə olunmuşdur. Birincisi **"S"** -vari motivin üst hissəsində olan əjdaha buynuzları, ikincisi əjdaha motivinin alt hissəsində stilizə olunmuş pulcuqlu ayaqları. Sıralarla düzülmüş və hərəkət edən əjdaha motivlərinin bütün səthi sıralarla yerləşmiş xırda "**S**" şəkilli motivlərlə doldurulmuşdur. Bu xırda "**S**" şəkilli motivlər simvolik planda əjdahanın bolluq və məhsuldarlıq təmsilçisi olmasına işarə edir. Belə ki, hər bir iri əjdaha motivi özündə çoxsaylı xırda əjdahaları "gəzdirir". Bu bədii prinsip isə əjdaha motivinin simvolik mənasını (bolluq və məhsuldarlıq) ifadə etməsini açıq-aşkar təsdiq edir.

Vərni xalılarının dizaynında əjdaha motivlərinin sıralanmasında fərqlərə də rast gəlinir. Adətən, vərnilərdə əjdaha motivləri bütün şaqu-

li sıralarda eyni istiqamətdə hərəkət edirlər. Lakin bununla belə, vərni xalılarında əjdaha motivlərinin sıradan-sıraya keçdikdə hərəkət istiqamətinin dəyişməsi də müşahidə olunur. Belə ki, bir sıranın əjdaha motivləri sola hərəkət edirlərsə, onun üst hissəsində yerləşdirilən əjdaha motivləri sağ istiqamətdə hərəkət edirlər. Sıradan-sıraya hərəkət istiqamətinin əksləşməsi əjdaha motivinin xeyir-şər simvolizmini gücləndirir. Sıralanan tünd və açıq rəngli əjdahaların əksliyi xeyir-şər simvolizmi ilə əlaqəli olduğu kimi, əhdaha motivlərinin də dəyişməsi həmin bu əkslik simvolizmi kontekstinə uyğun gəlir.

"Əjdahalı" vərni xalılarının dizaynında əjdaha motivləri ilə bərabər boşluqları dolduran və onları bəzəyən digər kiçik motivlərə də rast gəlinir. Bunların arasında ən çoxu isə həmayil motividir. Əjdaha sıralarının aralarında yerləşdirilən üçbucaq, asmaşəkilli həmayillər əksər halda cüt şəkildə, güzgüvari tərzdə təsvir olunmuşlar. Həmayillərin güzgüvari, əkslik şəklində yerləşdirilməsi əjdahaların kontrast rəngləri və sıradan-sıraya əksliyi ilə üst-üstə düşür. "Əjdahalı" vərnilərin boşluqlarında həmayillərlə bərabər, xırda doldurucu təsvirlər kimi romb motivinə də tez-tez rast gəlinir. Vərni xalılarında kiçik ölçülü romb motivlərinin iki növü – açıq və tünd rəngli sıralardan təşkil olunmuş romb və şəbəkə üsulu ilə yaradılmış romb çoxluq təşkil edir. Hər iki halda romb həndəsi simvol kimi İslamdan çox-çox əvvəlki – ibtidai inancdan, mədəniyyətdən qaynaqlanaraq bolluq və məhsuldarlıq ideyasını simvolizə etmişdir. Qarabağda Xocalı kurqanlarından tapılmış e.ə. I minilliyə aid (dəmir dövrü) çoxsaylı saxsı qabların üzərində romb təsvirlərinə rast gəlinir. Bu qabların simvolizmində də romb motivləri məhz bolluğu, məhsuldarlığı ifadə etmişlər [6].

Əjdaha motivlərinin boşluqlarında və sıraların arasında tez-tez rast gəlinən digər bir motiv su quşu (ördək) təsviridir. Yenə də qədim dövrlərdən başlayaraq, su quşu – ördək suyu simvolizə etməklə yanaşı, həyatı, məhsuldarlığı da simvolizə etmişdir. Vərni xalılarında bu ibtidai mədəniyyətin motivlərinin əks olunması onu göstərir ki, Qarabağ vərnilərində olan simvolizmin kökləri İslamdan qat-qat əvvələ gedərək ibtidai inamlardan, inanclardan, mədəniyyətdən qaynaqlanır.

Vərni xalılarının boşluqlarında dırnaqlı heyvanların da kiçik təsvirlərinə rast gəlinir. Belə heyvanların təsvirləri həmin xalılarda mövcud olan əjdaha motivlərinin real-fiziki aləmlə əlaqəsini ifadə edirlər.

"Əjdahalı" vərni xalılarının dizaynında haşiyə motivləri də öz qoruyucu funksiyasını yerinə yetirərək xalının dörd tərəfini əhatə edir. Həmin haşiyələrdə əsasən mollabaşı, ziqzaq formalı haşiyə zolaqları çoxluq təşkil edir. Bunlardan "Mollabaşı" haşiyə zolaqları isə daha geniş tətbiq olunur.

Qarabağın "Əjdahalı" vərni xalılarının tipoloji xüsusiyyətləri sırasında bu xalılara məxsus rəng harmoniyasını da qeyd etmək lazımdır. Vərni xalılarının ümumi rəng quruluşundan danışarkən etiraf etməliyik ki, əksər vərni xalılarının yerliyi tünd-qırmızı, innabı, sumağı rəngdədir. Bu, qırmızı, sumağı rəngin magik, qoruyucu xüsusiyyətlərinə inamla bağlıdır. Qırmızı rəng qan, həyat rəngi olmaqla yanaşı, bədxah ruhlara da qarşı güclü talismanik rəng sayılır.



Vərni xalılarında olan "**S**"-vari motivlərə gəldikdə yuxarıda qeyd edildiyi kimi, bu motivin yerlik rəngləri kontrast təşkil edərək tünd və açıq rənglərdən ibarət olurlar. Əjdaha motivləri

isə daha çox ağ və qara rənglərdə təsvir olunurlar. Bununla belə, əjdaha motivinin konturlarını təşkil edən incə xətlər sarı, mavi, yaşıl rəngdə olur. Bunlardan sarı rəng odu, alovu, istini; mavi rəng həyatverici suyu; yaşıl rəng isə nəbatət aləmini simvolizə edirlər. Beləliklə, əjdaha motivi öz rəng simvolizmində də əsas ünsürləri – təbiət, həyat ünsürlərini birləşdirmiş simvol kimi çıxış edir. Əjdaha motivinin daxili səthini bəzəyən xırda "**s**" şəkilli motivlərin rəngi əjdahanın yerliyinin rəngi ilə kontrast təşkil edir. Bu kontrast sadə "**S**"-vari əjdaha motivinin dekorativləşməsinə xidmət edir.

Əjdaha motivlərinin arasında yerləşdirilmiş doldurucu motivlər (həmayil, romb, ördək və s.) adətən qırmızı – sumağı rənglə kontrast təşkil edən qızılı, ağ və mavi rəngli olurlar.

Bütövlükdə Qarabağın "Əjdahalı" vərni xalılarının rəng koloriti isti rənglər əsasında tərtib olunaraq əjdaha motivinin Günəş, od, isti ilə əlaqəsini nümayiş etdirməklə yanaşı, qırmızı rəngin qoruyucu talismanik xüsusiyyətini də əks etdirir.

## Nəticə / *Conclusion*

Dünya muzeylərində, yerli və xarici kolleksiyalarında saxlanılan Qarabağın "Əjdahalı" vərni xalılarının bədii-texniki xüsusiyyətlərinin araşdırılarkən aşağıdakı qənaət və nəticələrə gəlinmişdir:

- Qarabağın vərni xalılarındakı əjdaha motivinin tarixi, bədii kökləri Səfəvilər dövrünün "Əjdahalı" saray xalçalarından başlayır.
- Səfəvilər dövründə "Əjdahalı" xalı çeşnilərinin professional rəssamlar tərəfindən yaradılması həmin xalılardakı əjdaha motivlərinin fiqurativ təsvir metodu əsasında yaradılmasını təmin etmişdir. Qarabağın "Əjdahalı" vərni xalılarının çeşnilərinin professional saray rəssamları tərəfindən deyil, sadə sənətkarlar tərəfindən yaradılması əjdaha motivinin həndəsiləşməsinə, dekorativləşməsinə yol açmışdır.
- Səfəvilər dövründə əjdaha motivi məşhur "Ovçuluq" xalılarından qaynaqlanaraq təsviri ("piktoral") xarakter daşımışdır. Qarabağın vərni xalılarında həndəsiləşmiş bu motiv təsviri deyil, dekorativ tərzdə təsvir olunmağa başlayır. Bu tarixi transformasiyalara baxmayaraq, Qarabağın "Əjdahalı" vərni xalılarını birmənalı olaraq Səfəvilər dövrünün "Əjdahalı" xalılarının varisləri hesab etmək olar.
- Qarabağın "Əjdahalı" vərni xalılarının dizayn xüsusiyyətlərinin təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, Səfəvilərin "Əjdahalı" xovlu xalılarının və vərni xovsuz xalılarının dizayn prinsipləri uyğundurlar. Belə ki, hər iki halda dizaynın əsası əjdaha motivinin şəbəkəvari strukturda yerləşdirilməsi ilə səciyyəvidir. Səfəvi xalılarında olduğu kimi, Qarabağın həmin vərnilərində də əjdaha motivlərinin ardıcıllaşmasında kontrast prinsipi tətbiq olunub. Tünd və açıq rəngli əjdaha motivlərinin birinin digərini əvəz etməsini Səfəvi xalılarında və vərnilərdə müşahidə edirik.
- Qarabağın "Əjdahalı" vərni xalılarının Səfəvilərin "Əjdahalı" xalıları ilə genetik əlaqələrini əks edən amillərdən biri də həmin xalıların rəng həllidir. Belə ki, hər iki halda "Əjdahalı" xalıların qırmızı – isti koloritdə olmasını müşahidə edirik. Hər iki halda xalıların yerliyini qırmızı, innabı, sumağı rəng təşkil edir. Səfəvi və vərni xalılarında aparıcı rəngin qırmızı olması "Əjdahalı" xalıların tipoloji rəng göstəricilərindən biridir.

## Ədəbiyyat / *References*


1. "Bilqamıs" dastanı. Bakı, 1999.
2. Əliyeva K. Yalnız Azərbaycanda toxunan üç nadir xovsuz xalça. Azərbaycan xalçaları. Cild 3, №9, 2013.
3. İbrahimov T. Azərbaycan incəsənətində əjdaha obrazının mənşəyi və tarixi https://www.academia.edu ›

4. İbrahimov T. Caucasian flat woven dragon carpets Verni ... – Issuu https://issuu.com › docs› cauc...
5. İbrahimov T. Caucasian "dragon" carpets. About the history of the ...https://issuu.com › docs› cauc...
6. Qədirova D. Azərbaycanın namazlıq xalçaları. Bakı: Şərq-Qərb, 2008.
7. Алиева К. Безворсовые ковры. Азербайджана. Баку: Элм, 1988.
8. Rugs from the Joseph V. McMullan Collection. Circulated by the Smithsonian Institution, 1966-1968.
9. Gans-Ruedin E. Le tapis du Caucase. Office du Livre, Fribourg. 1986.
10. Enderlein V. Orientalische Kelims. Henschelverlag Kunts and Gesellschaft. Berlin, 1986.
11. Türk ve İslam Eserleri Muzesi kolleksiyonundan Azerbaycan Halıları. Kitab kataloq. Türkiyə, 2020.

## Геометрическая трансформация драконового мотива в гладкотканных коврах «Верни»

**Дурдане Гадирова**
Доктор философии по искусствоведению
Азербайджанский национальный музей ковра. Азербайджан.
E-mail: dgadirova22@gmail.com

**Резюме.** Статья посвящена художественной трансформации драконовых мотивов сефевидских ковров в гладкотканных Карабахских коврах «Верни». Во введении дается обзор символизма драконовых мотивов. Прослеживаются корни этого мотива в мифологии Передней Азии, Анатолии и Кавказа.
В основной части статьи на основе конкретных ковров анализируется мотив дракона и его новая трансформация в гладкотканных коврах «Верни». Рассмотрены вопросы технологии, дизайна, цветового строя драконовых Карабахских «Верни» конца 19 – начала 20 века.
Иконографический анализ мотива дракона на гладкотканных Карабахских коврах «Верни» выявил генетическую общность этого мотива с мотивами знаменитых «Драконовых» ковров Сефевидской эпохи.
**Ключевые слава:** Сефевиды, Карабахский ковер, драконовый мотив, «Верни», гладкотканный, геометрическая трансформация